**Energetik içkilərin uşaqlar tərəfindən istifadəsi sahəsində mövcud hüquqi boşluqlar, risklər, hüquqi tənzimləmənin və nəzarətin gücləndirilməsi zərurəti haqqında analitik təhlil**

Son illər Azərbaycan Respublikasında istehlakçılar tərəfindən energetik içkilərin daha çox istifadə olunması müşahidə olunmaqdadır. Bu halın xüsusilə uşaqlar arasında geniş yayılması onların sağlamlıq hüququnun təmini baxımından ciddi narahatlıq yaradır. Bu məhsulların satılmasında qanunvericiliklə müəyyən edilmiş yaş məhdudiyyətlərinə baxmayaraq uşaqlar tərəfindən faktiki olaraq asanlıqla əldə edilməsi, ictimai yerlərdə və təhsil müəssisələrinin ətrafında açıq şəkildə istifadə olunması uşaqların sağlamlığının qorunması hüququna öz mənfi təsirini göstərməkdədir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) müstəqil monitorinq mexanizmi fəaliyyəti çərçivəsində ictimai yerlərdə, təhsil müəssisələrinin ətrafında aparılan monitorinqlər və müşahidə olunan mövcud faktiki vəziyyət onu deməyə əsas verir ki, bu içkilərdən yetkinlik yaşına çatmayan şəxslərin istifadəsi sistemli xarakter almışdır və energetik içkilərin satışı prosesində yaş məhdudiyyətinə nəzarətin artırılmasına ehtiyac var. Xüsusilə vendinq aparatları, avtomatlaşdırılmış satış terminalları və pərakəndə satış obyektlərində yaşa nəzarət mexanizmlərinin faktiki olaraq tətbiq olunmaması uşaqların belə bu məhsulları sərbəst əldə etməsinə imkan yaratmışdır.

Bu kimi halların davam etməsi, uşaqların konstitusion hüquqlarının, xüsusilə sağlamlıq hüququnun təmin olunmasında, onların sağlam inkişafında maneələr yaratmaqdadır.

Belə ki, energetik içkilərin tərkibində olan kofein, taurin, quarana və digər stimullaşdırıcı maddələr insanların sinir sistemi və ürək-damar sisteminə birbaşa təsir göstərir. Elmi və tibbi araşdırmalar göstərir ki, bu kimi maddələrin istifadəsi, xüsusilə inkişaf mərhələsində olan uşaqlar tərəfindən qəbulu ürək ritminin pozulması, arterial təzyiqin yüksəlməsi, nevroloji və psixoloji pozuntular, qıcolmalar, psixoz halları yaradır və eyni zamanda qəfil ölümlərlə nəticələnə bilər. Uşaqların fizioloji inkişaf mərhələsində olması bu təsirləri daha ağır edə bilər.

Ümumdünya Səhiyyə Təşkilatının mövqeyinə əsasən energetik içkilər uşaqlar üçün xüsusi risk daşıyan məhsullar hesab olunur və onların istifadəsinin məhdudlaşdırılması dövlətlərin səhiyyə sahəsində həyata keçirdiyi siyasətin mühüm istiqamətlərindən birini təşkil etməlidir. Bu yanaşma dövlətlərin insan sağlamlığının qorunması ilə bağlı üzərinə götürdüyü pozitiv öhdəliklərinin mövcudluğunu bir daha təsdiq edir.

Azərbaycan Respublikası Konstitusiyasının 41-ci maddəsinə əsasən hər kəsin sağlamlığını qorumaq hüququ vardır. Bu norma hüququn bəyan edilməsi ilə kifayətlənmir, eyni zamanda dövlət üzərinə konkret hüquqi öhdəliklər qoyur. Belə ki, dövlət sağlamlıq hüququnun real və effektiv şəkildə təmin edilməsi öhdəliyini üzərinə götürür və bu öhdəlik özündə sağlamlığa təhlükə yaradan risklərin qarşısının alınması üçün preventiv hüquqi və institusional mexanizmlərin yaradılmasını da ehtiva edir.

Konstitusiyanın 17-ci maddəsinə əsasən uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir. Bu norma dövlətin uşaqların sağlamlığı üçün risk yaradan amillərin qarşısını almaq üzrə aktiv və preventiv tədbirlər görmək öhdəliyini birbaşa müəyyən edir.

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən hər bir uşağın sağlam və təhlükəsiz mühitdə yaşamaq hüququ vardır və dövlət bu hüququn təmin edilməsinə təminat verir. Bu hüquq yalnız formal hüquqi təminat deyil, real təhlükələrin aradan qaldırılmasını tələb edən hüquqi öhdəlikdir.

Aparılan monitorinqlər nəticəsində müəyyən olunmuşdur ki, ödəniş terminalları və avtomatlaşdırılmış satış köşkləri (vendinq aparatları) vasitəsilə energetik içkilərin satışı faktiki olaraq heç bir yaş nəzarəti mexanizmi tətbiq olunmadan həyata keçirilir. Bu aparatların texniki funksionallığında alıcının yaşını müəyyən etməyə imkan verən hər hansı identifikasiya sistemi nəzərdə tutulmamışdır. Nəticə etibarilə, istənilən yaşda olan şəxs, o cümlədən 18 yaşdan aşağı olan şəxslər, heç bir məhdudiyyət və yoxlama proseduru ilə qarşılaşmadan, yalnız ödəniş etməklə energetik içkiləri sərbəst şəkildə əldə edə bilirlər.

Bu isə o deməkdir ki, energetik içkilərin yetkinlik yaşına çatmayan şəxslərə satışının qanunvericiliklə qadağan edilməsinə baxmayaraq, vendinq aparatları vasitəsilə həyata keçirilən satış prosesində bu qadağanın icrasını təmin edən nəzarət mexanizminin təkmilləşdirilməsinə ehtiyac var.

"Reklam haqqında" Azərbaycan Respublikasının Qanununun 12.1 və 12.1.8-ci maddələrinə əsasən reklamda yetkinlik yaşına çatmayanların müdafiəsinin təmin edilməsi məqsədilə energetik içkilərin reklamında yetkinlik yaşına çatmayanlara birbaşa və ya dolayı formada müraciət edilməsi, habelə uşaqlar üçün nəzərdə tutulmuş televiziya və digər proqramların energetik içkilərin reklamı ilə kəsilməsi qadağan edilmişdir. Bu norma qanunvericiliyin energetik içkilərin yetkinlik yaşına çatmayan şəxslərin sağlamlığı və inkişafı üçün risk yaratdığını qəbul etdiyini və onların bu təsirlərdən qorunmasının hüquqi zərurət olduğunu tanıdığını göstərir.

Bununla yanaşı, həmin Qanuna əsasən tündlüyü 5 faizdən yuxarı olan alkoqollu içkilərin reklamı ondan həddən artıq istifadənin sağlamlıq üçün zərərli olması barədə xəbərdarlıqla müşayiət olunmalı və bu xəbərdarlıq reklam sahəsinin ən azı 10 faizini təşkil etməlidir. Eyni zamanda, qanunvericilik 2026-cı il 1 aprel tarixindən etibarən tütün və tütün məmulatlarının reklamını ümumiyyətlə qadağan etməklə, insan sağlamlığı üçün təhlükəli hesab olunan məhsulların reklamına münasibətdə daha sərt və preventiv yanaşma tətbiq etmişdir.

Bu hüquqi yanaşma göstərir ki, dövlət insan sağlamlığının qorunmasını prioritet hüquqi dəyər kimi qəbul edir və sağlamlıq üçün risk yaradan məhsulların reklamına münasibətdə xüsusi məhdudiyyətlər və məcburi xəbərdarlıq mexanizmləri tətbiq edir. Bu mexanizmlərin əsas məqsədi istehlakçıların, xüsusilə də daha həssas sosial qrupların sağlamlıq riskləri barədə məlumatlandırılması və onların sağlamlıq hüququnun preventiv şəkildə qorunmasının təmin edilməsidir.

Lakin faktiki vəziyyət göstərir ki, energetik içkilərin reklamı ictimai məkanlarda, o cümlədən küçə reklam lövhələrində, ictimai nəqliyyat vasitələrində, binaların fasadlarında, ticarət obyektlərində və digər açıq reklam məkanlarında geniş şəkildə həyata keçirilsə də, bu reklamların üzərində həmin məhsulların sağlamlıq üçün yaratdığı risklər barədə məcburi xəbərdarlıq mexanizmi nəzərdə tutulmamışdır. Nəticədə, sağlamlıq üçün risk yaradan məhsulun reklamı hər hansı preventiv xəbərdarlıq olmadan geniş auditoriyaya, o cümlədən yetkinlik yaşına çatmayan şəxslərə faktiki olaraq məhdudiyyətsiz şəkildə çatdırılır.

Bu vəziyyət xüsusilə daha həssas əhali qrupu olan uşaqların sağlamlıq hüququnun qorunması baxımından faktiki hüquqi boşluq yaradır.

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin müəyyən etdiyi sanitariya normalarına əsasən energetik içkilərin üzərində "18 yaşdan aşağı şəxslərə satışı qadağandır" xəbərdarlığının göstərilməsi məcburidir. Bununla yanaşı, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 455.2-ci maddəsinə əsasən energetik içkilərin yetkinlik yaşına çatmayan şəxslərə satılması inzibati məsuliyyət yaradır.

Lakin mövcud normaların faktiki icrasının və hüquqi nəzarət mexanizmlərin zəif olması və bu kimi pozuntulara görə nəzərdə tutulmuş cərimənin preventiv təsir gücünün aşağı olması qanunun effektivliyini əhəmiyyətli dərəcədə zəiflədir. Bu vəziyyət hüquqi normanın formal mövcudluğu ilə onun faktiki tətbiqi arasında ciddi fərqin olduğunu göstərir.

Sanksiyanın məbləği hüquq pozuntusunun ictimai təhlükəlilik dərəcəsinə uyğun olmadıqda və iqtisadi baxımdan hüquq pozan subyekt üçün real çəkindirici təsir yaratmadıqda, həmin normanın tətbiqi effektivliyi əhəmiyyətli dərəcədə zəifləyir və hüquqi tənzimləmə formal xarakter daşımağa başlayır.

Beynəlxalq təcrübənin təhlili göstərir ki, bir sıra ölkələrdə energetik içkilərin yetkinlik yaşına çatmayan şəxslərə satılmasına görə tətbiq edilən inzibati sanksiyalar əhəmiyyətli dərəcədə sərt xarakter daşıyır. Belə ki, bəzi dövlətlərdə bu hüquq pozuntusuna görə fiziki şəxslər üçün 500-1000 manat ekvivalentində, vəzifəli şəxslər üçün 1500-4000 manat ekvivalentində, hüquqi şəxslər üçün isə 5000-10000 manat ekvivalentində cərimələr müəyyən edilmişdir. Bundan əlavə, bir sıra hüquq sistemlərində bu hüquq pozuntusunun təkrar törədilməsi hallarında təkcə maliyyə sanksiyaları ilə məhdudlaşmayan, eyni zamanda ticarət fəaliyyətinin müvəqqəti

dayandırılması və ya xüsusi icazənin ləğvi kimi daha ciddi hüquqi tədbirlər də tətbiq olunur.

Bu yanaşma dövlətlərin uşaqların sağlamlığının qorunması ilə bağlı üzərinə götürdüyü pozitiv öhdəliklərini effektiv şəkildə təmin etmək məqsədi daşıyır və hüquqi məsuliyyət mexanizminin real preventiv təsir göstərməsinə xidmət edir.

Uşaqlar fizioloji və psixoloji baxımdan daha həssas sosial qrup olduqları üçün onların sağlamlığının qorunmasına dövlət tərəfindən daha ciddi nəzarətin həyata keçirilməsi xüsusi önəm daşıyır.

Beynəlxalq təcrübə göstərir ki, bir sıra ölkələrdə energetik içkilərin yetkinlik yaşına çatmayan şəxslərə satışı qadağan edilmiş, bu sahədə ciddi inzibati sanksiyalar tətbiq edilmiş, reklam məhdudiyyətləri gücləndirilmiş və satış üzərində effektiv nəzarət mexanizmləri yaradılmışdır. Bu yanaşma dövlətlərin uşaqların sağlamlığının qorunması üzrə pozitiv öhdəliklərinin praktiki həyata keçirilməsinin nümunəsidir.

Bu baxımdan energetik içkilərin yetkinlik yaşına çatmayan şəxslərə satılmasına görə nəzərdə tutulmuş mövcud inzibati cərimələrin məbləğinin artırılması, hüquq pozuntusunun təkrar törədilməsi hallarında daha ciddi hüquqi sanksiyaların, o cümlədən fəaliyyətin müvəqqəti dayandırılması kimi tədbirlərin tətbiqinin qanunvericilikdə təsbit olunması uşaqların hüquqlarının qorunması, onların sağlam inkişafı baxımından önəmlidir.

Aparılan monitorinqlər nəticəsində müəyyən olunmuş mövcud vəziyyət onu deməyə əsas verir ki, Azərbaycan Respublikasında energetik içkilərin uşaqlar tərəfindən istifadəsinin qarşısının alınması üçün qanunvericiliyin və mövcud hüquqi nəzarət mexanizmlərin təkmilləşdirilməsinə ciddi ehtiyac vardır.

Qeyd edilənləri nəzərə alaraq, aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

1. Energetik içkilərin yetkinlik yaşına çatmayan şəxslərə satılmasına görə nəzərdə tutulmuş inzibati cərimələrin məbləğinin artırılması və onların preventiv təsir gücünün gücləndirilməsi;
2. Vendinq aparatlarında energetik içkilərinin satışına yaş identifikasiyası mexanizmlərinin tətbiqi və ya bu məhsulların həmin aparatlarda satışının məhdudlaşdırılması;
3. Uşaqların həyat və sağlamlığına mümkün təhlükənin qarşısının alınması məqsədilə energetik içkilərin satışına nəzarətin gücləndirilməsi;
4. Energetik içkilərin reklamına dair məhdudiyyətlərin gücləndirilməsi və sağlamlıq risklərinə dair xəbərdarlıqların məcburi norma kimi təsbit edilməsi;
5. Qanunvericilikdə təsbit olunmuş nəzarət mexanizmlərinin fəaliyyətinin təkmilləşdirlməsi və gücləndirilməsi və ya daha effektiv yeni nəzarət mexanizmlərinin yaradılması;
6. Qeyd olunan hüquq pozuntularına yol verən şəxslərin sistemli şəkildə məsuliyyətə cəlb edilməsi;
7. Problemin aktuallığını nəzərə alaraq ictimai maarifləndirmə tədbirlərinin gücləndirilməsi.

Nəticə etibarilə qeyd olunmalıdır ki, energetik içkilərin uşaqlar tərəfindən istifadəsinin geniş yayılması yalnız səhiyyə problemi deyil, eyni zamanda konstitusion hüquqların, xüsusilə sağlamlıq hüququnun təmin edilməsi ilə bağlı ciddi hüquqi problemdir.

Uşaqlar cəmiyyətin ən həssas və müdafiəyə ehtiyacı olan sosial qrupudur. Onların sağlamlığının effektiv qorunmaması yalnız fərdi sağlamlıq riski deyil, həm də dövlətin Konstitusiya ilə müəyyən edilmiş pozitiv öhdəliklərinin lazımi səviyyədə yerinə yetirilməməsi kimi qiymətləndirilə bilər.

Uşaqların sağlamlığının qorunması yalnız bu günün deyil, həm də cəmiyyətin və dövlətin gələcəyinin qorunması deməkdir. Bu sahədə effektiv hüquqi, institusional və preventiv tədbirlərin görülməsi hüquqi dövlət prinsipinin, insan hüquqlarına hörmətin real təmin edilməsinin mühüm göstəricisidir.